Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# “Startap” şəhadətnaməsinin verilməsi ilə bağlı

# METODİKİ GÖSTƏRİŞ

2024

# MÜNDƏRİCAT

- Giriş ........ 3
- Əsas anlayışlar ........ 3
- Sənədlərin qəbulu və qeydiyyatı ........ 3
- Tələb olunan sənədlər ........ 5
- Layihələrin qiymətləndirilməsi ........ 5
- “Startap” şəhadətnaməsinin verilməsi ........ 7
- “Startap” şəhadətnaməsinin dublikatının verilməsi ........ 9
- “Startap” şəhadətnaməsinin ləğv edilməsi ........ 9

## Giriş

Bu Metodiki Göstəriş Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (bundan sonra - Agentlik) tərəfindən mikro və kiçik sahibkarlıq subyektlərinə "Startap" şəhadətnaməsinin verilməsi prosesini izah edir.

"Startapın müəyyən olunması meyarları" Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmişdir. "Startap" şəhadətnaməsinin verilməsi Meyarlara uyğun olaraq Agentlik tərəfindən həyata keçirilir. Metodiki Göstəriş "Startap" şəhadətnaməsinin alınması prosesini açıq və aydın izah etmək məqsədini daşıyır.

## Əsas anlayışlar

**Startap -** innovativ təşəbbüsə əsaslanaraq həyata keçirilən, qanunvericilik ilə müəyyən olunmuş meyarlara cavab verən və Agentlik tərəfindən "Startap" şəhadətnaməsi verilmiş şəxslərin həyata keçirdiyi sahibkarlıq fəaliyyəti;

**Meyarlar** - Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Startapın müəyyən olunması Meyarları"nın 2-ci bəndində nəzərdə tutulmuş **"startap" şəhadətnaməsini əldə etmək üçün müraciət edən şəxslərə və onların təqdim edəcəyi məhsula (xidmətə) dair** meyarlar;

**"Startap" şəhadətnaməsi -** innovativ təşəbbüsə əsaslanaraq sahibkarlıq fəaliyyətini həyata keçirən mikro və kiçik sahibkarlıq subyektlərinin Vergi Məcəlləsinin 102.1.31-ci və 106.1.23-cü maddələrinə əsasən innovasiya fəaliyyətindən əldə etdikləri gəlir və ya mənfəət vergisindən 3 (üç) il müddətinə azad edən və Agentlik tərəfindən təqdim olunan hüquqi sənəd;

**Qiymətləndirmə -** məhsula (xidmətə) dair meyarlara uyğun olan və sahibkarlıq subyekti tərəfindən təqdim edilən məhsul və ya xidmətin sistemli qiymətləndirilməsi.

## Sənədlərin qəbulu və qeydiyyatı

**Sənədlərin qəbulu və onların qeydiyyata alınması ilə bağlı aşağıdakı prosedurlar həyata keçirilir:**

- ərizəçi ərizəni və ona əlavə edilmiş sənədləri (məlumatları) məktubla və ya birbaşa Agentliyə) elektron qaydada (və ya email: info@smb.gov.az) təqdim edir;

- müraciət Agentliyə daxil olduğu gün qeydiyyata alınır;
- daxil olmuş ərizəyə və ona əlavə edilmiş sənədlərə (məlumatlara) 30 gün müddətində baxılır;
- sənədlərə baxılarkən Ekspertlər Şurasının katibi ərizəçi tərəfindən təqdim olunan məlumatların aşağıdakı *"Startap" şəhadətnaməsini əldə etmək üçün müraciət edən şəxslərə dair meyarlar"*a uyğunluğunu yoxlayır:

*Meyarlar:*

1. Mikro və ya kiçik sahibkarlıq subyekti olması;
2. Orta və (və ya) iri sahibkarlıq subyekti olan təsisçilərin hüquqi şəxsdə payının 49 faizdən çox olmaması;
3. Rezident vergi ödəyicisi olması.

**İmtina halları:**

Ərizəçi tərəfindən təqdim edilmiş sənədlərdə "Startap" şəhadətnaməsini əldə etmək üçün müraciət edən şəxslərə dair meyarlar"a uyğunsuzluq müəyyən edildikdə Agentlik tərəfindən birbaşa imtina ilə bağlı qərar qəbul edilir.

Sənədlərdə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə 5 iş günündən gec olmayaraq, onların aradan qaldırılması barədə ərizəçiyə məlumat verilir:




Ərizədə və sənədlərdə (məlumatlarda) çatışmazlıqlar aşkar olunmadıqda, onlar qiymətləndirilməsi üçün Agentlikdə yaradılmış Ekspertlər Şurasına təqdim edilir.

## Tələb olunan sənədlər

| | | |
|---|---|---|
| 1 | **Hüquqi şəxs**<br>▪ vergi ödəyicisinin şəhadətnaməsi | **Fərdi sahibkar**<br>▪ vergi ödəyicisinin şəhadətnaməsi<br>▪ şəxsiyyətini təsdiq edən sənədin süräti |
| 2 | Tərtib edilən layihənin adını, ətraflı məzmununu əks etdirən təqdimat | |
| 3 | Məhsulun sənaye nümunəsi və ya dizaynı | |
| 4 | Məlumatlardan ibarət biznes-plan | |

### Biznes planda müəyyən ediləcək məlumatlar:

| | | | |
|---|---|---|---|
| Məhsulun (xidmətin) bazarda payı ilə bağlı bazar araşdırması və marketinq planı, onun bazar potensialı | Məhsulun ixrac və ya idxalı əvəzetmə potensialı | Məhsulun (xidmətin) unikallığı və rəqabətqabiliyyətliliyi | İnvestisiya planı |

**Olduğu təqdirdə:**

a) idarəetmə orqanlarının üzvlərinin fəaliyyət təcrübəsi və (və ya) təhsilləri haqqında;
b) məhsulun (xidmətin) hazırlanması, bazara yerləşdirilməsi və sonrakı inkişafını təmin edəcək işçiləri haqqında;
c) məsləhətçiləri haqqında;
d) səhmdarları (payçıları) və (və ya) investorları haqqında;
e) startapa cəlb olunan qrant, investisiya və ya kredit barədə məlumatlar;
f) startap məhsuluna dair patent və ya patent almaq üçün iddia sənədi;
g) texnoloji biznes inkubatorunun qeydiyyat şəhadətnaməsi.

## Layihələrin qiymətləndirilməsi

Sənədlər katib tərəfindən Ekspertlər Şurasının üzvlərinə təqdim edilir.

### Ekspertlər Şurası

- Kollegial orqandır;
- Tərkibi:
  - 3 nəfər - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi;
  - 2 nəfər - Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi;
  - 1 nəfər - Azərbaycan Milli Elmlər Akademiyası;
  - 1 nəfər - Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi;
  - 1 nəfər - Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi;
  - 3 nəfər - müstəqil ekspertlər.

- İqtisadiyyat nazirinin əmri ilə təsdiq edilmişdir;
- Ekspertlər Şurasının sədri iqtisadiyyat naziri tərəfindən müəyyən edilir.

## Ekspertlər Şurası iclası

- Ayda bir dəfədən az olmayaraq keçirilir;
- Ekspertlər Şurasının katibi tərəfindən təşkil olunur;
- Azı 2 müstəqil ekspert olmaqla, ümumilikdə 7 üzvü iştirak etdikdə səlahiyyətli hesab olunur.

## Qiymətləndirmə

**1**

Ərizəçilər Ekspertlər Şurasının iclasında təqdimat ilə çıxış edirlər

**2**

Ekspertlər Şurasının üzvləri tərəfindən layihənin Meyarlara uyğunluğu qiymətləndirilir və ərizəçiyə "Startap" şəhadətnaməsinin verilib-verilməməsi ilə bağlı rəyin qəbul edilməsi məqsədilə səsvermə keçirilir

**3**

Rəy sadə səs çoxluğu ilə qəbul edilir və səslər bərabər olduğu təqdirdə, Ekspertlər Şurasının sədrinin səsi həllədici hesab edilir

**4**

İclas barədə məlumatlar və qiymətləndirmənin nəticələri (rəylər) protokollaşdırılır

**5**

Katib tərəfindən, həmçinin, bu Metodiki Göstərişin 1 nömrəli Əlavəsində göstərilən cədvəl doldurulur

**6**

İclas bitdikdən sonra bu Metodiki Göstərişin 1 nömrəli Əlavəsi və protokol iclasda iştirak edən Ekspertlər Şurasının üzvləri tərəfindən imzalanır

**7**

Protokol katib tərəfindən Agentliyin aidiyyəti stuktur bölməsinə təqdim edilir

## Layihələrin Ekspertlər Şurasının üzvləri tərəfindən qiymətləndirmə meyarları

- ***İnnovativ təşəbbüs*** *- mövcud istehsal və ya xidmət proseslərinin yeni formada təşkili ilə əlavə dəyərin yaradılması və ya yeni texnologiyanın tətbiqi ilə əlavə dəyərin formalaşması;*
- ***Rəqabətqabiliyyətlilik*** *– Məhsulun və ya xidmətin rəqabət şəraitində digər məhsullar və xidmətlər ilə müqayisədə üstünlük qazanması;*
- ***Digər startap məhsulu (xidməti) ilə eynilik təşkil edib-etməməsi*** *- həmin məhsul və ya xidmətin daha əvvəl startap şəhadətnaməsi verilmiş və artıq bazarda mövcud olan başqa bir məhsul və ya xidmətlə birəbir eyni funksiyalar daşımaması, dizaynının və ya iş modelinin təkrarlanmaması;*
- ***Qısamüddətli (3 ilədək) perspektivdə məhsula olan tələbə uyğunluq*** *- Məhsul və ya xidmətin qısamüddətli dövrdə mövcud bazar şəraiti və müştəri ehtiyacları ilə uyğunluğunu və gələcəkdə potensial müştərilər üçün nə qədər cəlbedici olması.*

## "Startap" şəhadətnaməsinin verilməsi

- Ekspertlər Şurasının müvafiq rəyi əsasında Agentlik tərəfindən "Startap" şəhadətnaməsinin verilməsi və ya verilməsindən imtina haqqında əsaslandırılmış qərar qəbul edilir;

- Sözügedən qərar qəbul edildikdən sonra sahibkarlıq subyektlərinə "Startap" şəhadətnaməsini aldıqları barədə rəsmi məlumat verilir;

- "Startap" şəhadətnaməsi verilmiş sahibkarlıq subyektləri barədə məlumat Agentliyin rəsmi internet səhifəsində (https://smb.gov.az) yerləşdirilir.

***Startap Şəhadətnaməsinin forması***


STARTAP ŞƏHADƏTNAMƏSİ

№ ____________ «___»________20___il

(şəhadətnaməni verən orqanın adı və ünvanı)

(şəhadətnamənin verildiyi hüquqi şəxsin tam adı / VÖEN-i, fiziki şəxsin soyadı, adı, atasının adı / VÖEN-i)

(hüquqi şəxsin hüquqi ünvanı, fiziki şəxsin ünvanı)

(məhsul (xidmət) barədə məlumat)

(etibarlılıq müddəti)

Bu şəhadətnamə "Startap" şəhadətnaməsini əldə etmək üçün müraciət edən hüquqi və ya fiziki şəxsin və təqdim ediləcək məhsulun (xidmətin) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli 20 nömrəli Qərarı ilə müəyyən edilmiş meyarlara uyğunluğunu təsdiq edir və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.31-ci və ya 106.1.23-cü maddəsində nəzərdə tutulan azadolmadan istifadə hüququ verir.

(Məsul şəxsin vəzifəsi) (İmzası) (Adı, soyadı)

M.Y.

“Startap” şəhadətnaməsinin verilməsi prosesinin qısa izahedici infoqrafikası:



## “Startap” şəhadətnaməsinin dublikatının verilməsi

*“Startap” şəhadətnaməsi itirildikdə və ya zədələndikdə, şəhadətnamənin sahibi onun dublikatının verilməsi üçün Agentliyə ərizə ilə müraciət edir*

*Agentlik ərizənin daxil olduğu tarixdən 3 iş günü müddətində dublikatı hazırlayaraq ərizəçiyə təqdim edir*

- *Dublikat verilənədək şəhadətnamənin sahibi öz fəaliyyətini Agentliyə təqdim etdiyi ərizənin qeydiyyat tarixi və nömrəsi haqqında arayış əsasında həyata keçirir. Həmin arayış Agentliyin rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilir.*
- *Dublikat itirilmiş və ya zədələnmiş şəhadətnamə ilə eyni hüquqi qüvvəyə malikdir*

## “Startap” şəhadətnaməsinin ləğv edilməsi

**Ləğv edilmə halları:**

- “Startap” şəhadətnaməsinin sahibi tərəfindən ərizə ilə müraciət olunduqda
- Hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi ləğv edildikdə
- Fiziki şəxsin fərdi sahibkar kimi fəaliyyətinə xitam verildikdə
- Məhkəmənin müvafiq qərarı olduqda
- Təqdim edilmiş sənədlərdə sonralar düzgün olmayan məlumatlar aşkar edildikdə

“Startap” şəhadətnaməsi yuxarıda sadalanan hallara (məhkəmə qərarı istisna olmaqla) istinad edilməklə, **Agentliyin qərarı ilə ləğv edilir**. Həmin qərar qəbul olunduğu tarixdən 2 iş günü müddətində “Startap” şəhadətnaməsinin sahibinə təqdim edilir.

“Startap” şəhadətnaməsinin ləğvi haqqında qərardan inzibati qaydada və ya məhkəməyə şikayət verilə bilər.

**Əlavə 1**

*Ekspertlər Şurasında müzakirə edilmiş layihələrin səsvermə nəticələri*

| Ekspertlər Şurasının üzvləri | | *Sahibkarın layihəsi 1* | | *Sahibkarın layihəsi 2* | | *İmza* |
|---|---|---|---|---|---|---|
| | | *Leyhinə* | *Əleyhinə* | *Leyhinə* | *Əleyhinə* | |
| 1 | Ekspert | | | | | |
| 2 | Ekspert | | | | | |
| 3 | Ekspert | | | | | |
| 4 | Ekspert | | | | | |
| 5 | Ekspert | | | | | |
| 6 | Ekspert | | | | | |
| 7 | Ekspert | | | | | |
| 8 | Ekspert | | | | | |
| 9 | Ekspert | | | | | |
| 10 | Ekspert | | | | | |
| 11 | Ekspert | | | | | |
| *Nəticə* | | | | | | |
| | | *Məqbul / qeyri - məqbul* | | *Məqbul / qeyri - məqbul* | | |

## Ekspertlər tərəfindən meyarlar üzrə layihələrin qiymətləndirilməsi cədvəli

**Sahibkarlıq subyektinin adı:**_________________________

**Layihənin adı:**______________________________________

| Meyarlar | | UYĞUNDUR: | | Əsaslandırma bölməsi |
|---|---|---|---|---|
| | | ***Bəli*** | ***Xeyr*** | |
| 1 | İnnovativ təşəbbüsdür | | | |
| 2 | Rəqabətqabiliyyətlidir | | | |
| 3 | Digər startap məhsulu (xidməti) ilə eynilik təşkil edir | | | |
| 4 | Gəlir və mənfəət məqsədi daşıyır | | | |
| 5 | Qısamüddətli (3 ilədək) perspektivdə məhsula olan tələbə uyğundur | | | |
| **Qiymətləndirmənin nəticəsi:** | | ☐ **məqbul**<br>☐ **qeyri - məqbul** | | |

**Ekspertin adı, soyadı:** ________________________________ **İmza:** ___________________

**Tarix:** _______________